# TOVUZ

VƏTƏN, XEYİRXAHLIQ, ƏDALƏT UĞRUNDA!

Tovuz Rayon İcra Hakimiyyətinin orqanı

Qəzet 1929-cu ildən çıxır * № 13-14 (7607-7608) * 27 oktyabr 2022-ci il * İctimai-siyasi qəzet * Qiyməti 50 qəpik


## 27 sentyabr - Anım Günü tədbiri keçirilib



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə hər il sentyabrın 27-si Azərbaycan Respublikasında Anım Günü kimi qeyd edilir. Bununla bağlı Tovuz şəhər Şəhidlər Xiyabanında Anım Günü ilə əlaqədar tədbir təşkil olunmuşdur. Tədbirdə rayon icra hakimiyyətinin başçısı, hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhid ailələri, qazilər və rayon ictimaiyyətinin nümayəndələri iştirak etmişdir.

Tədbiri giriş sözü ilə açan Tovuz Rayon İcra Hakimiyyəti başçısı Məmməd Məmmədov şəhidlərimizin əziz xatirəsini yad etmək üçün bir dəqiqəlik sükut elan etdikdən sonra Rəşadətli Ordumuzun keçdiyi döyüş yolundan, Müzəffər Ali Baş Komandanımızın müharibə zamanı göstərdiyi qətiyyətdən söz açmışdır.

Daha sonra şəhid Münasib Yusifovun atası Mübariz Yusifov, şəhid Ceyhun İsmayılovun anası Aytəkin İsmayılova, şəhid Vasif Heydərovun həyat yoldaşı Qəmər Heydərova, şəhid Firuz Əhmədovun atası Məzahir Əhmədov, Vətən müharibəsi qazisi Nahid Hacıyev çıxış edərək şəhid ailələrinə və qazilərimizə göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya tovuzlular adından öz təşəkkürlərini bildirmişlər.

Şəhidlərimizin ruhuna dualar oxunduqdan sonra şəhidlərimizin xatirəsinə inşa olunmuş abidə kompleksinin, əbədi məşəl abidəsinin və burada ölkəmizin azadlığı və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərimizin məzarları önünə gül dəstələri qoyularaq, əziz xatirələri böyük ehtiramla yad edilmişdir.

Gün ərzində rayonun idarə və müəssisələrinin kollektivləri, ictimaiyyət nümayəndələri, rayon sakinləri də Şəhidlər Xiyabanına gələrək şəhidlərimizi anmışlar.

Saat 12:00-da rayon ərazisində Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

## Yeni Azərbaycan Partiyasının yaradılmasının 30-cu ildönümünə həsr edilmiş tədbir keçirilmişdir

Tovuz rayon Nizami adına Mədəniyyət evində Yeni Azərbaycan Partiyasının (YAP) təsis edilməsinin 30 illiyinə həsr olunmuş tədbir keçirilib.

Tədbirdə Tovuz rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədov, YAP İdarə Heyətinin üzvü, Millət Vəkili Pərvin Kərimzadə, Milli Məclisin deputatı, YAP Təftiş Komissiyasının üzvü Aydın Hüseynov, YAP Mərkəzi Aparatının məsul əməkdaşı Araz Xudadanov, YAP Tovuz rayon Təşkilatının sədri Nihad Pənahov, qazilər, YAP fəalları, veteranları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Əvvəlcə tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin adını daşıyan Tovuz şəhər mədəniyyət və istirahət parkındakı abidəsi önünə gül dəstələri qoyaraq, Ulu Öndərin əziz xatirəsinə dərin hörmət və ehtiram ifadə ediblər.



Sonra tədbir iştirakçıları Tovuz rayon Şəhidlər Xiyabanını ziyarət edib, şəhidlərin xatirəsinə ucaldılmış abidənin önünə gül dəstələri düzüblər.

Tədbirdə Dövlət Himni səsləndirilib, ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra Yeni Azərbaycan Partiyasının yaranması və inkişaf tarixindən bəhs edən videoçarx nümayiş olunub.

Tədbir YAP rayon təşkilatının sədri Nihad Pənahovun "YAP Azərbaycanın şərəfli tarixinin yaşıdı, möhtəşəm uğurlarımızın ilham mənbəyidir" mövzusunda məruzəsi ilə davam etdirilmişdir. YAP-ın yaranma tarixindən, keçdiyi şərəfli yoldan, gələcək hədəflərindən bəhs edən məruzəçi bildirmişdir ki, 30 illik zəngin və şərəfli inkişaf yolu keçmiş YAP ötən müddət ərzində ümumxalq partiyasına çevrilərək möhtəşəm nailiyyətlər əldə etmişdir. Məruzədə müasir Azərbaycanın ən möhtəşəm anlarının, ən nəhəng uğurlarının və tarixi qələbələrinin onun liderləri olan Heydər Əliyevin və İlham Əliyevin adları ilə bağlı olduğu vurğulanıb.

Millət Vəkili Pərvin Kərimzadə çıxış edərək bildirib ki, 30 il öncə Azərbaycanda yaranmış ağır durum yeni bir siyasi təşkilatın meydana gəlməsi zərurətini ortaya qoydu. Bu məqsədlə Azərbaycanın bir qrup qabaqcıl ziyalılarının bütün xalqın iradəsini ifadə edən müraciətinə cavab olaraq Heydər Əliyev YAP-ın yaradılmasına razılıq verdi. YAP müstəqilliyə qovuşan ölkəmizin həyatında ən təlatümlü, həyacanlı zamanında, torpaqlarımızın erməni işğalçıları tərəfindən zəbt edildiyi günlərdə yaradıldı. Müstəqilliyimizin əbədi və dönməzliyinin təmin edilməsi, Azərbaycan dövlətinin qurulması və bu günkü ən nəhəng uğurları onun liderləri olan Heydər Əliyevin və İlham Əliyevin adı ilə bağlıdır.

Milli Məclisin deputatı Aydın Hüseynov çıxış edərək YAP-ın yaranma və inkişaf tarixindən, ölkənin inkişafındakı xidmətlərindən ətraflı bəhs etmişdir. Eyni zamanda bildirmişdir ki, Dövlət başçısı İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın birgə səyləri nəticəsində görülən işlərin, atılan uğurlu addımların nəticələri yalnız Azərbaycanın deyil, həmçinin Yeni Azərbaycan Partiyasının həyatında da özünü aydın şəkildə göstərir.

Tədbirdə həmçinin çıxış edən partiya veteranı Sahib Quliyev, Vətən müharibəsi iştirakçısı, Qazi Nahid Hüseynov, Rayon Gənclər və İdman İdarəsinin rəisi Sahib Ələsgərov çıxış edərək YAP-ın yaranmasından, əldə etdiyi tarixi nailiyyətlərdən, xalqımız və dövlətimiz üçün göstərdiyi xidmətlərdən bəhs etmişlər. Çıxışlarda 44 günlük Vətən müharibəsində təzahür olunan xalq-iqtidar birliyindən, güclü milli həmrəylik əsasında ölkəmizin bundan sonra da Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla inkişaf edəcəyinə əminlik ifadə olundu.

Çıxış edən Tovuz Rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədov tədbir iştirakçılarını YAP-ın 30-cu ildönümü münasibətilə təbrik etmiş və bildirmişdir ki, partiyamız yaradıldığı gündən üzərinə götürdüyü missiyanı şərəflə yerinə yetirmişdir. Əldə olunan uğurlar təbii ki partiyamızın qurucusu və ilk sədri olmuş Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Bu gün isə partiyamızın rəhbəri, Müzəffər Ali Baş Komandanımız İlham Əliyev bu siyasi kursu məharətlə davam etdirir. Ölkədə güclü quruculuq işləri sosial iqtisadi islahatlar aparılır, ölkənin bütün sahələrinin inkişafı üçün əməli addımlar atılır. Vətən müharibəsində tarixi Zəfərimizdə də Yeni Azərbaycan Partiyasının mühüm rolu olmuşdur. Partiyamız fəaliyyəti ilə sübut edir ki həm dünənin, həm də bu günun partiyasıdır. Biz hər birimiz əminik ki bu partiya Azərbaycanın güclü siyasi, iqtisadi inkişafı üçün təməlini qoyduğu hədəflərlə həm də gələcəyin partiyasıdır.

Biz hamımız bu partiyanın üzvləri olaraq Heydər Əliyev yoluna və bu yolun layiqli davamçısı İlham Əliyevə, doğma vətənimiz Azərbaycana sədaqətlə xidmət etməliyik. İcazə verin hamımızın adından möhtərəm Prezidentimizi, partiyamızın sədrini əmin edək ki, tovuzlular bundan sonra da onun siyasəti ətrafında sıx birləşəcək, Heydər Əliyev ideyalarının həyata keçirilməsi uğrunda fəal mübarizə aparacaqlar.

Tədbirin sonunda Tovuz rayon təşkilatının ictimai-siyasi həyatında fərqlənən bir qrup partiya fəalına fəxri fərmanlar, eləcə də partiya sıralarına yeni qəbul olunmuş şəxslərə üzvlük vəsiqəsi təqdim edilib.

*"Tovuz"*

# RİH başçısının səyyar qəbul-görüşü Çobansığnaq kəndində keçirilib




Tovuz rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədov rayonda fəaliyyət göstərən idarə, müəssisə və təşkilatların rəhbərlərinin iştirakı ilə Sarıtala kənd inzibati ərazi dairəsinin tərkibinə daxil olan Çobansığnaq kəndində səyyar qəbul-görüş keçirib.

Kənd sakinləri qarşısında çıxış edən Məmməd Məmmədov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkədə uğurla icra olunan daxili və xarici siyasətdən bəhs etmiş, həmin siyasətin sosial yönümlü olduğunu vurğulamışdır. İcra başçısı ölkədə həyata keçirilən bütün tədbirlərin mərkəzində insan amili dayandığını qeyd etmiş, bu istiqamətdə rayonumuzda görülən işlər barədə kənd sakinlərini məlumatlandırmışdır.

Sonra kənd sakinlərinin müraciətləri dinlənilib. İcra başçısı vətəndaşları narahat edən məsələlərin həlli istiqamətində aidiyyəti qurumlara müvafiq tapşırıqlar verib.

*"Tovuz"*

# Koxanəbi kəndində görüş




Tovuz rayon İcra Hakimiyyəti başçısı Məmməd Məmmədov növbəti səyyar qəbul-görüşü Koxanəbi kənd sakinləri ilə keçirmişdir. Qəbul-görüşdə RİH başçısı aparatının mısul işçiləri, idarə, müəssisə və təşkilatların rəhbər şəxsləri iştirak etmişlər.

RİH başçısı əvvəlcə kənd sakinləri qarşısında çıxış edərək ölkə Prezidenti cənab İlham Əliyevin son dövrlərdə əldə etdiyi diplomatik uğurlardan və daxili siyasətdən bəhs etmiş, həyata keçirilən bütün tədbirlərin vətəndaşların sosial rifah halının yaxşılaşdırılmasına xidmət etdiyini vurğulamışdır.

Daha sonra səyyar qəbulda iştirak edən şəxslər dinlənmiş, səsləndirilən məsələlərin həlli istiqamətində aidiyyəti təşkilatlara müvafiq tapşırıqlar verilmişdir.

Koxanəbi sakinləri keçirilən səyyar qəbulların əhəmiyyətli olduğunu bildirmiş, əhalinin həyat səviyyəsinin yüksəldilməsi istiqamətində görülən işlərə görə ölkə rəhbərliyinə təşəkkürlərini ifadə etmişlər.

*"Tovuz"*

# Qaraxanlıda qəbul-görüş




Tovuz rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədovun, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərlərinin iştirakı ilə rayonun Qaraxanlı kəndində səyyar qəbul-görüş keçirilib.

Əvvəlcə sakinlər qarşısında çıxış edən Məmməd Məmmədov cari il ərzində ölkə rəhbərliyi tərəfindən regionların sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması məqsədilə atılan addımlardan söz açıb, bu istiqamətdə rayonumuzda görülən işlərdən bəhs edib.

Daha sonra sakinləri narahat edən müxtəlif məsələlərə aydınlıq gətirilib, müvafiq izahatlar verilib və qaldırdırılan problemlərin həlli istiqamətində əlaqədar qurumlara müvafiq tapşırıqlar verilib.

Kənd sakinləri ölkə rəhbərliyi tərəfindən göstərilən diqqət-qayğıya görə cənab Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkürlərini bildiriblər.

*"Tovuz"*

# Kirən kəndində səyyar qəbul-görüş




Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən yerli icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən yerlərdə sakinləri narahat edən problemlərin müəyyən olunması və həll edilməsi məqsədilə mütəmadi olaraq səyyar qəbul-görüşlər keçirilir.

Tovuz rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədov növbəti səyyar qəbul-görüşü Kirən kənd inzibati ərazi dairəsinin tərkibində olan doqquz kəndin sakinləri ilə keçirilmişdir. Görüşdə RİH başçısı aparatının məsul işçiləri, rayon prokuroru, idarə, müəssisə və təşkilatların rəhbərləri iştirak etmişlər.

Əvvəlcə RİH başçısı Məmməd Məmmədov sakinlər qarşısında çıxış edərək möhtərəm Prezidentimizin rəhbərliyi ilə əhalinin rifah halının yüksəldilməsi məqsədilə ölkənin hər yerində o cümlədən Tovuzda görülən işlərdən danışmış, insanların sosial vəziyyətlərinin yaxşılaşdırılması istiqamətində atılan addımları diqqətə çatdırmış və bütün bu işlərin Azərbaycanın öz iqtisadi gücü hesabına görüldüyünü vurğulamışdır.

Daha sonra qəbulda iştirak edən sakinləri narahat edən məsələlər dinlənilmiş, problemlərin aradan qaldırılması istiqamətində müvafiq tapşırıqlar verilmişdir.

*"Tovuz"*

# RİH başçısının növbəti səyyar qəbulu Ağdam kəndində baş tutub



Tovuz rayon İcra Hakimiyyəti başçısı Məmməd Məmmədov növbəti səyyar qəbul-görüşdə rayonun Ermənistanla sərhədində yerləşən Ağdam kəndinin sakinləri ilə görüşüb.

Səyyar qəbulda hüquq-mühafizə orqanlarının, aidiyyəti idarə, müəssisə və təşkilatların, xidmət sahələrinin rəhbərləri iştirak ediblər.

Görüşdən əvvəl çıxış edən Məmməd Məmmədov ölkə Prezidenti cənab İlham Əliyevin regionların sosial-iqtisadi inkişafını daim diqqət mərkəzində saxladığını bildirmiş, vətəndaşların, xüsusilə sərhəd kəndlərində yaşayan əhalinin sosial vəziyyətinin və rifahının daha da yaxşılaşdırılması üçün uğurla həyata keçirilən dövlət siyasətinin əhəmiyyətini vurğulamışdır.



Səyyar qəbulda sakinlərin müraciətləri dinlənilib, sakinlər tərəfindən onları narahat edən məsələlərlə bağlı verilən suallar cavablandırılıb. Qeyd olunan məsələlərin bir qismi yerindəcə həll edilib, digərlərinin həll edilməsi aidiyyəti təşkilatlara tapşırılıb və nəzarətə götürülüb.

Ağdam kəndinin sakinləri ölkə rəhbərliyi tərəfindən vətəndaşların sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində atılan addımları dəstəklədiklərini bildirib və minnətdarlıq ediblər.

*"Tovuz"*

# 1 oktyabr - Prokurorluq işçilərinin peşə bayramı günü qeyd olunub



Ulu Öndər Heydər Əliyevin 17 iyul 1998-ci il tarixli Sərəncamı ilə "1 oktyabr- Prokurorluq işçilərinin peşə bayramı günü" kimi təsis edilmişdir. Həmin tarixdən başlayaraq hər il bu gün prokurorluq orqanlarında çalışan işçilərin peşə bayramı kimi qeyd olunur. Prokurorluq işçilərinin peşə bayramı Tovuz rayonunda da qeyd olunmuşdur.

Əvvəlcə Tovuz rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədov, Tovuz rayon Prokuroru Maarif Hüseynov, hüquq mühafizə orqanlarının rəhbərləri və prokurorluq işçiləri Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstələri qoymuşlar.

Daha sonra RİH başçısı rayon prokurorluğunun işçilərini peşə bayramları münasibətilə səmimi qəlbdən təbrik etmiş, bundan sonraki bütün fəaliyyətlərində, cinayətkarlığa qarşı mübarizə və vətəndaşların hüquq və azadlıqlarının qorunması sahəsindəki xidmətlərində uğurlar arzulamışdır.

Sonda fəaliyyətində fərqlənən prokurorluq əməkdaşına Tovuz rayon İcra Hakimiyyətinin Fəxri Fərmanı təqdim olunmuş və xatirə şəkili çəkilmişdir.

*"Tovuz"*




# 5 oktyabr - Beynəlxalq müəllimlər günü qeyd olunub

Tovuz rayon İcra Hakimiyyətinin inzibati binasında RİH başçısı Məmməd Məmmədovun, Tovuz-Qazax Regional Təhsil İdarəsinin Tovuz təhsil sektorunun müdiri Elmira Mürşüdlünün, RİH başçısı aparatının məsul əməkdaşlarının, şəhid analarının və müəllimlərin iştirakı ilə 5 oktyabr - Beynəlxalq müəllimlər günü münasibətilə tədbir keçirilib.

Əvvəlcə müəllimlər Ulu Öndər Heydər Əliyevin Tovuz şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstələri qoyublar.



Tədbiri giriş sözü ilə açan Məmməd Məmmədov peşə bayramları münasibətilə müəllimləri təbrik edib, onlara çətin və məsuliyyətli peşələrində uğurlar arzu edib. RİH başçısı Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin rəhbərliyi, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsləri ilə təhsil sahəsində uğurla həyata keçirilən layihələrdən, bu istiqamətdə Tovuz rayonunda görülən işlərdən bəhs etmiş və rayonumuzda son illərdə əldə olunan nəticələri diqqətə çatdırmışdır. Məmmədov Məmmədov Azərbaycan Respublikası Prezidentinin 04 oktyabr 2022-ci il tarixli Sərəncamı ilə "Əməkdar müəllim" adına layiq görülən Abdıyeva Amalya Nəbi qızını və "Tərəqqi" medalına layiq görülən Qurbanova Təranə Nürəddin qızını təbrik etmiş, həmin fəxri adların eyni zamanda Tovuz təhsilinə və rayon sakinlərinə verilən yüksək qiymət olduğunu vurğulamış və bütün tovuzlular adından ölkə Prezidentinə təşəkkürünü bildirmişdir.



Daha sonra çıxış edən Tovuz təhsil sektorunun müdiri Elmira Mürşüdlü, Hacılar kənd tam orta məktəbin direktoru Güloğlan Bayramov, Aşağı Quşçu kənd 1 saylı tam orta məktəbin müəllimi Leyla Məmmədova və Yusif Sadıqov adına Bozalqanlı kənd tam orta məktəbin müəllimi, Vətən müharibəsi qazisi Nahid Hacıyev uğurla həyata keçirilən təhsil siyasəti sayəsində ölkənin hər yerində, o cümlədən Tovuz rayonunda yüksək nəticələrin əldə olunduğunu bildirmiş, təhsilə göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıq etmişlər.

Sonda təhsildə əldə etdiyi nailiyyətlərə görə bir qrup müəllimə Tovuz rayon İcra Hakimiyyətinin Fəxri Fərmanları təqdim olunmuşdur.

*"Tovuz"*

# Üzüm bu mövsüm də tovuzluların üzünü ağardır

***Keçən əsrin 70-ci illərində Azərbaycanda üzümçülüyün inkişafı sahəsində qazanılan uğurlarda Tovuz rayonunun da payı olub. Statistik məlumatlara görə, həmin vaxtlar rayonda 10 min hektar üzüm bağı mövcud olmuş, hər il 120 min ton məhsul istehsal edilmişdir. Həmin məhsul rayondakı 12 şərab zavodunda emal olunmuşdur.***

Lakin keçmiş sovetlər birliyi dövründə aparılan antialkoqol kampaniyası nəticəsində rayondakı üzüm bağları da kortəbii şəkildə məhv edilmiş və nəticədə bu gəlirli sahə sıradan çıxmışdır. Belə vəziyyət Prezident İlham Əliyevin ənənəvi kənd təsərrüfatı sahələri-



nin dirçəldilməsi tədbirlərinəcən davam etmişdir. Xüsusən dövlət başçısının üzümçülüyün inkişafına dair imzaladığı sərəncamdan sonra ölkədə, o cümlədən Tovuzda bu sahəyə marağı olan təsərrüfat sahiblərinə geniş imkanlar yaradılmışdır. Nəticədə bir neçə il ərzində rayonda üzüm bağlarının sahəsi xeyli genişlənmişdir. Hazırda Tovuzda 822, 4 hektar üzüm bağı mövcuddur ki, onun da 14 hektarı bu il salınmışdır.

Qeyd edək ki, təsərrüfat sahibləri yeni bağlar salarkən süfrə sortuna daha çox üstünlük verirlər. Bunun əsas səbəbi süfrə sortlarından daha çox qazanc götürülməsidir. Məhz bunun nəticəsidir ki, rayonda mövcud olan üzüm bağlarının 680, 4 hektarında süfrə sortları yetişdirilir. "Qara Moldova", "Red-Qlobe", "Bolqar", "Rakasteli", "Tayfu", "Viktoriya", "Kardinal" və "Təbriz" sortlarını bu gün alıcılar həvəslə alırlar.

Hazırda rayonda yerli şəraitə uyğun məhsuldar üzüm sortları tinglərinin yetişdirilməsi, beton dayaqların istehsalının artırılması, bağların suvarma suyu ilə təminatının yaxşılaşdırılması, təcrübəli mütəxəssislərin bu sahəyə cəlb edilməsi və digər məsələlərin həlli ilə bağlı kompleks tədbirlər həyata keçirilir. Bunun sayəsində rayonda elə kəndlər var ki, istehsal etdikləri məhsulun həcminə görə rayon göstəricisini qabaqlayırlar. Aşağı Quşçu, Düz Qırıxlı, Dondar Quşçu, Aşağı Mülkülü, Dönük Qırıxlı və digər kəndlərdə hər il bol məhsul yetişdirilir.

Ən çox üzüm bağı isə Aşağı Quşçu kəndindədir. Kənddə 500 hektara yaxın üzüm bağı var ki, onlardan da hər il yüksək məhsul əldə edilir. Burada yüksəkkeyfiyyətli şərab da istehsal olunur. Ümumiyyətlə, rayonda üzüm istehsalında yüksək göstəricilərə nail olan təsərrüfat sahibləri çoxdur. Nüsrət Hüseynov, Elqam Tağıyev, Kamil Hüseynov, Mübariz Orucov, Ömərqaya Vəliyev hər il öz bağlarından yüksək məhsul götürürlər.

Aşağı Quşçu kəndinin sakini Kamil Hüseynovun 30 hektar üzüm bağı var. Onun 3 hektarı iki il əvvəl saldığı cavan, 27 hektarı isə barverən bağlardır. Fermer üzüm plantasiyasını genişləndirməklə yanaşı, 400 tonluq anbar da inşa etmişdir. Üzümün becərilməsində, eləcə də daşınmasında lazım olan bütün texnikaya sahib olan fermer deyir ki, bu gün ölkədə sahibkarlara hər cür dəstək verilir.

Hazırda Tovuzda üzüm yığımı davam edir. İndiyəcən toplanan məhsul keçən ilin eyni dövründəkindən çoxdur. Bağbanlar çalışırlar ki, əziyyətlə yetişdirdikləri məhsulu vaxtında və itkisiz toplasınlar.

# KOB dostu ofisi açıldı



*Tovuz rayon İcra Hakimiyyətinin inzibati binasında Tovuz KOB dostu ofisinin fəaliyyətə başlaması ilə əlaqədar görüş keçirilmişdir. Keçirilən görüşdə Tovuz rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədov, Azərbaycan Respublikası Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədov, sahibkarlar və ictimaiyyət nümayəndələri iştirak ediblər.*

Tovuz RİH başçısı Məmməd Məmmədov çıxış edərək rayonunun iqtisadi potensialının geniş olduğunu bildirmiş, sahibkarlıq fəaliyyəti üçün əlverişli imkanların mövcudluğu nəzərə alınaraq KOB dostunun fəaliyyətə başlamasının xüsusi əhəmiyyət kəsb etdiyini vurğulamışdır.

Görüş zamanı KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov biznesə yerində dəstəyin təmin olunması baxımından KOB dostlarının fəaliyyətinin önəmini qeyd edib, effektiv dəstək mexanizmi kimi KOB dostlarının regionlarda sahibkarlığın inkişafına və biznesin qarşılaşdığı çətinliklərin operativ həllinə öz töhfəsini verdiyini vurğulayıb. Sahibkarlar KOB dostu ilə sıx əməkdaşlığa dəvət olunub.




Görüş çərçivəsində KOBİA-nın Tovuz üzrə Kiçik və Orta Biznesin dostu - KOB dostu rayonun biznes ictimaiyyətinə təqdim olunub, Agentlik tərəfindən KOB-lara göstərilən dəstək mexanizmləri barədə filmlər nümayiş olunub və sahibkarları maraqlandıran suallar cavablandırılıb.

Qeyd etmək lazımdır ki, Tovuz üzrə KOB dostu ofisi Heydər Əliyev Mərkəzində yerləşir və həmin ofisdə sahibkarlara dəstək və xidmətlərin göstərilməsi üçün lazımi şərait yaradılıb.

*"Tovuz"*

# Tibb məntəqələri istifadəyə verilib



Beynəlxalq Qızıl Xaç Komitəsi tərəfindən Tovuz rayon Əlibəyli kənd tibb məntəqəsi və Əsrik Cırdaxan kənd Ailə Sağlamlıq Mərkəzi əsaslı təmir olunduqdan sonra istifadəyə verilib.

Hər iki tibb məntəqəsinin yenidən istifadəyə verilməsi ilə bağlı keçirilən tədbirdə Tovuz rayon İcra Hakimiyyəti başçısının müavini - Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Niftalı Qasımov, "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin Qərb regionu üzrə koordinatoru İmran Qurbanov, Beynəlxalq Qızıl Xaç Komitəsinin Səhiyyə deleqatı Oscar Danilo Garcia Linarte və Komitənin Səhiyyə koordinatoru Apollo Kinyokie Barassa iştirak ediblər.

Qonaqlara məntəqələrdə aparılan təmir işlərinin ümumi gedişi, yeni yaradılan şərait və tibb otaqları barədə ətraflı məlumat verilib.

RİH başçısının müavini Niftalı Qasımov və TƏBİB-in koordinatoru İmran Qurbanov çıxış edərək sərhəd kəndlər olan Əlibəyli və Əsrik Cırdaxan kəndlərinin strateji cəhətdən önəmli olduğunu bildirib, Beynəlxalq Qızıl Xaç Komitəsinin rəhbərliyinə ölkənin, həmçinin Tovuz rayonunun səhiyyəsinə göstərdikləri diqqətə görə təşəkkür ediblər.

*"Tovuz"*

# RİH başçısı Tovuz şəhər 7 saylı körpələr evi-uşaq bağçasında olub



Ölkə rəhbərliyi tərəfindən bütün sahələrə olduğu ki, təhsil sahəsinə, xüsusilə məktəbəqədər təhsil müəssisələrinə diqqət-qayğı göstərilir və həmin müəssisələrin maddi-texniki bazası daim yenilənir, körpələr üçün daha yaxşı şərait yaradılır. Bunun məntiqi nəticəsi olaraq Tovuzda fəaliyyət göstərən bütün məktəbəqədər təhsil müəssisələri daim diqqətdə saxlanılır. Müasir standartlara cavab verən və uşaqlar üçün hər cür şəraitin yaradıldığı məktəbəqədər təhsil müəssisələrindən biri də Tovuz şəhər 7 saylı körpələr evi-uşaq bağçasıdır.

Tovuz rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədov Tovuz şəhər 7 saylı körpələr evi-uşaq bağçasını ziyarət edərək körpələr üçün yaradılan şərait, tibbi müayinə vəziyyəti, ərzaq təminatının mövcud vəziyyəti və qışa hazırlıq üçün görülən işlər ilə maraqlanıb.



Bağça müdiri və digər işçilər tərəfindən uşaq bağçasının ümumi vəziyyəti və yaradılan şəraitlə bağlı rayon rəhbərinə məlumat verilib. Tovuz şəhər 7 saylı körpələr evi-uşaq bağçasının kollektivi ölkədə uşaqların sosial müdafiəsinin gücləndirilməsi və məktəbəqədər təhsil müəssisələrinin ümumi şəraitinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlərə görə ölkə başçısı cənab İlham Əliyev, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz minnətdarlıqlarını bildiriblər.

# Vətən müharibəsi iştirakçıları məktəblilərlə görüşdülər



Vətən müharibəsində qazanılan şanlı Zəfərimizin ərəfəsində Tovuzun təhsil müəssisələrində məktəblilərin Vətən Müharibəsi iştirakçıları və qazilərlə görüşləri keçirilir.

Görüş rayonun Y.Sadıqov adına Bozalqanlı kənd tam orta məktəbində baş tutub. Məktəbin şagirdləri ilə görüşdə Tovuzlu Vətən Müharibəsi iştirakçısı, RİH başçısı aparatının Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin böyük məsləhətçisi Fərmanzadə Azər Aydın oğlu, Vətən Müharibəsinin qaziləri Həsənov Pərvin İkram oğlu və Ələkbərov Anar Mayıl oğlu iştirak etmişlər.

Şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra görüş açıq elan olunmuşdur.

Əvvəlcə Y.Sadıqov adına Bozalqanlı kənd tam orta məktəbin direktoru Nüsrət Quliyev çıxış edərək Vətən Müharibəsi iştirakçılarını məktəblilərə təqdim etmiş və İkinci Qarabağ Müharibəsi zamanı Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Rəşadətli Azərbaycan Ordusunun mənfur düşmən üzərində əldə etdiyi Böyük Qələbədən söz açmışdır.

Sonra qazilərimiz çıxış edərək keçdikləri çətin və şərəfli döyüş yolu ilə bağlı məktəblilərə məlumat vermişlər. Onlar eyni zamanda Qalib Azərbaycan Ordusunun igidliyindən və qəhrəmanlığından söz açmış, müharibədən bitdikdən sonra Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya şəhid ailələrinə, Vətən Müharibəsi iştirakçılarına və qazilərə göstərdikləri diqqət və qayğıya görə minnətdarlıqlarını bildirmişlər.

*"Tovuz"*



# RİH başçısı Azərbaycan-Ermənistan sərhədində baş verən təxribat zamanı yaralanan leytenant Fərid Zeynalovu evində ziyarət edib

Tovuz rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədov, RİH başçısı aparatının məsul işçiləri və ictimaiyyət nümayəndələri sentyabrın 12-si gecə və 13-ü səhər saatlarında Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan-Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəcər, Laçın və Zəngilan istiqamətlərində genişmiqyaslı təxribat törətməsi nəticəsində yaralanan və müalicəsi bitdikdən sonra evə qayıdan Tovuz rayonu Aşağı Öysüzlü kənd sakini, leytenant Zeynalov Fərid Zahid oğlunu ziyarət ediblər.

RİH başçısı yaralı hərbiçimizin ümumi sağlamlıq vəziyyəti və məişət qayğıları ilə maraqlanıb, erməni təxribatının qarşısının alınması zamanı bir tibb xidməti rəisi olaraq göstərdiyi şücaətə görə təşəkkür edib.

Leytenant Fərid Zeynalov Vətən müharibəsi və son təxribatlara cavab olaraq aparılan uğurlu döyüş əməliyyatlarında iştirakından danışıb, yaralandıqdan sonra ona və bütün yaralanan hərbi qulluqçulara göstərilən xüsusi diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə dərin minnətdarlıqlarını ifadə edib.

Qeyd edək ki, Vətən müharibəsində leytenant Fərid Zahid oğlu Zeynalov N saylı hərbi hissənin tibb xidməti rəisi olaraq iştirak etmiş, Ağdam, Füzuli və Cəbrayıl istiqamətlərində yaralanan hərbiçilərə tibbi yardım göstərmişdir. Leytenant Fərid Zeynalov xidmətini yeni yaradılan komando hərbi hissələrinin birində davam edib, son təxribatlar zamanı Laçın istiqamətində yaralanıb və Müdafiə Nazirliyinin Baş Klinik Hospitalında müalicə aldıqdan sonra evə buraxılıb.

*"Tovuz"*

# Asiman Məmmədrzayev evində ziyarət edilib



Tovuz rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədov, RİH başçısı aparatının məsul işçiləri və ictimaiyyət nümayəndələri sentyabrın 12-si gecə və 13-ü səhər saatlarında Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan-Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəcər, Laçın və Zəngilan istiqamətlərində genişmiqyaslı təxribat törətməsi nəticəsində Kəlbəcər rayonu istiqamətində gedən döyüşlərdə yaralanan, müalicəsi davam edən və müvəqqəti evə buraxılan Tovuz rayonu Qovlar şəhəri sakini Məmmədrzayev Asiman İsmixan oğlunu ziyarət ediblər.

RİH başçısı yaralı hərbiçimizin ümumi sağlamlıq vəziyyəti, davam edən müalicəsi və ailəsinin məişət qayğıları ilə maraqlanıb, xüsusi təyinatlı qüvvələrin hərbiçisi olaraq Vətənin müdafiəsində göstərdiyi şücaətə görə təşəkkür edib.

Asiman Məmmədrzayev son təxribatlara cavab olaraq aparılan uğurlu döyüş əməliyyatlarında iştirakından danışıb, yaralandıqdan sonra dərhal respublika əhəmiyyətli hospitala aparıldığını və orada xüsusi diqqət gördüyünü bildirmiş, ona göstərilən xüsusi dövlət qayğısına görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə dərin minnətdarlıqlarını ifadə edib.

*"Tovuz"*

# Muzeylərə ekskursiyalar təşkil olunub



"Zəfər Günü" ərəfəsində "Tariximizi öyrənək" devizi altında məktəblilərin muzeylərə ekskursiyaları təşkil olunub.

Təşkil edilən ekskursiya zamanı müxtəlif şəhər və kənd məktəblərinin şagirləri Tovuz rayon Tarix-Diyarşünaslıq və Dövlət Rəmzləri Muzeylərində olublar.

Ekskursiya müddətində şagirdlər muzeyləri gəzərək Azərbaycanın milli mədəniyyəti və tarixi haqqında məlumatlarını daha da zənginləşdiriblər. Bələdçilər tərəfindən şagirdlərə 44 günlük Vətən müharibəsi zamanı ölkəmizin qələbəsini təmin edən mühüm amillər barədə məlumat verilib, xalq-ordu birliyinin önəmi vurğulanıb və muzeydə sərgilənən eksponantlarla tanışlıq həyata keçirilib.

*"Tovuz"*

# 27 sentyabr Anım Günündə şəhidlərin xatirəsinə ağacəkmə aksiyası keçirilib



27 sentyabr Anım Günündə şəhidlərin əziz xatirəsinə ağacəkmə aksiyası təşkil olunub. Aksiya Tovuz şəhəri ərazisində keçirilib. Ağacəkmə aksiyasında Tovuz Rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədov, hüquq mühafizə orqanlarının rəhbərləri, Şəhid ailələri, qazilər, rayon ictimaiyyətinin nümayəndələri iştirak etmişlər. Aksiyada ümumilikdə 40 müxtəliv növ ağaclar əkilmişdir.

Şəhid ailələrinin üzvləri övladlarının əziz xatirəsinin yad olunması üçün təşkil olunan tədbirlərə görə Müzəffər Ali Baş Komandan İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz təşəkkürlərini bildirmişlər.

*"Tovuz"*

# İnklüziv veloyürüş



"Tovuz - Gənclər Paytaxtı 2022" və "Biz Birik - İnklüziv və sağlam həyat" layihəsi çərçivəsində əlilliyi olan gənclər və qazilərin iştirakı ilə inklüziv veloyürüş həyata keçirilib.

Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin dəstəyi ilə, Tovuz Gənclər və İdman İdarəsinin və Azərbaycan Əlil Velosipedçilərə Dəstək İctimai Birliyini təşkilatçılığı ilə baş tutan yürüşdə bir qismi Vətən müharibəsi qazisi və ümumi səbəblərdən əlilliyi olan 40-dan çox gənc iştirak edib.



Layihənin əsas məqsədi əlilliyi olan gənclərin para-velosiped idman növünə cəlb edilməsi vasitəsilə onların cəmiyyətə inteqrasiyasına, özünəinam hisslərinin artırılmasına, şəxsi inkişafının və psixoloji vəziyyətlərinin bərpa olunmasına, sağlam həyat tərzinin təbliği ilə bağlı biliklərinin artırılmasına töhfə vermək və reabilitasiyalarına şərait yaratmaqdan ibarətdir.

Finiş nöqtəsində yürüş iştirakçılarını təntənə ilə qarşılayan Tovuz Olimpiya İdman Kompleksində fəaliyyət göstərən idmançılar daha sonra vətənpərvər musiqilər sədasında öz idman çıxışlarını təqdim ediblər.

Layihə iştirakçıları və qonaqlar çıxış edərək layihənin əhəmiyyətindən danışıb, layihənin "Tovuz - Gənclər Paytaxtı 2022" çərçivəsində Tovuz rayonunda keçirilməsini alqışlayaraq təşkilatçılara təşəkkürlərini bildiriblər.

*"Tovuz"*



# RİH başçısı yenidən qurulan "Tovuz" və "Qovlar" elektrik yarımstansiyalarında görülən işlərlə tanış olub

Azərbaycan Respublikasının Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə enerji təminatının əsaslı şəkildə yaxşılaşdırılması, böyük infrastruktur layihələrin icrası baxımından mühüm işlər görülür. Ölkə rəhbərliyi tərəfindən həyata keçirilən həmin tədbirlərin davamı olaraq Tovuz rayon sakinlərinin elektrik enejisi ilə təminatının yaxşılaşdırılması məqsədilə rayonda fəaliyyət göstərən "Tovuz" və "Qovlar" elektrik yarımstansiyaları yenidən qurulur və gücü artırılır.

Qeyd edək ki, Yuxarı Öysüzlü kəndi ərazisində yerləşən 110/35/6 kV-luq "Tovuz" yarımstansiyasının tikintisinə başlanıb. Yarımstansiyada 110 kV-luq 2x20 MVA gücündə iki ədəd transformator, müasir standartlara cavab verən 110, 35 və 6 kV-luq eleqaz açarlı yuvalar quraşdırılacaq və avtomatlaşdırılmış SCADA dispetçer idarəetməsi sisteminə qoşulacaqdır. "Tovuz" yarımstansiyası 35 kV-luq Qovlar, 35 kV-luq Ağdam, 35 kV-luq Əlibəyli və 35 kV-luq Tovuzçay Hava elektrik verilişləri xətləri və 12 ədəd 6 kV-luq HEVX-ni qidalandırır ki, bu da 18364 aboneti elektrik enerjisi ilə təmin edir.

İbrahimhacılı kəndi ərazisində yerləşən 110/10 kV-luq Qovlar yarımstansiyası yenidən, müasir tələblərə uyğun qurulur. Belə ki, yarımstansiya 11193 aboneti elektrik enerjisi ilə təmin edir. Yarımstansiya 110/35/10 kV-luq olmaqla gücü artırılaraq 25 MVA-dan 50 MVA-ya çatdırılıb. Hazırda tikinti işləri başa çatıb, avadanlıqların quraşdırılmasına başlanıb. Yaxın günlərdə yarımstansiyanın istismara verilməsi planlaşdırılır.

Tovuz rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədov görülən işlərlə yerində tanış olmuş, işlərin sürətləndirilməsi və keyfiyyətlə başa çatdırılması istiqamətində aidiyyatı qurumlara lazımi tapşırıqlar vermişdir.

*"Tovuz"*

# Yeni Azərbaycan Partiyasının 30 illik yubileyinə həsr olunmuş mini futbol turniri start götürüb



Tovuz Olimpiya İdman Kompleksində Yeni Azərbaycan Partiyasının 30 illik yubileyinə həsr edilmiş mini futbol üzrə Respublika turnirinin zona mərhələsinə start verilib.

Turnirinin açılış günündə Tovuz rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədov, YAP Tovuz rayon təşkilatının sədri Nihad Pənahov, YAP Şəmkir rayon təşkilatının sədri Fəxrəddin Vəliyev, YAP-ın region təşkilatlarının rəsmiləri, rayon ictimaiyyəti və futbol həvəskarları iştirak ediblər.



Əvvəlcə RİH başçısı Məmməd Məmmədov, YAP Tovuz rayon təşkilatının sədri Nihad Pənahov və digər rəsmilər Ulu Öndər Heydər Əliyevin Tovuz rayon mədəniyyət və istirahət parkında ucaldılmış abidəsini ziyarət edərək, önünə gül dəstələri qoymuş və Ümummilli Liderimizi ehtiramla yad etmişlər.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən, ümummilli lider və şəhidlərimizin əziz xatirələri bir dəqiqəlik sükutla yad edildikdən sonra açıq elan olunmuşdur.

Məmməd Məmmədov çıxış edərək Yeni Azərbaycan Partiyasının yaranma və inkişaf tarixindən bəhs etmiş, Ulu Öndər Heydər Əliyev və ölkə Prezidenti cənab İlham Əliyevin hakimiyyətləri dövrlərində ölkəmizin bütün sahələrdə, o cümlədən idman sahəsində böyük uğurlar əldə etdiyini qeyd etmişdir. RİH başçısı ölkənin hər yerində və xüsusilə Qərb bölgəsində futbola xüsusi diqqət və qayğı göstərildiyini vurğulamış və turnirdə iştirak edən bütün komandalara uğurlar arzulamışdır.

Qeyd edək ki, turnirin zona mərhələsi iki turdan ibarətdir və YAP Tovuz rayon təşkilatının komandası ilk turda Şəmkir komandasına qalib gələrək ikinci tura çıxmışdır.

*"Tovuz"*

# Şəhid Hüseynov Cavid Hümbət oğlunun xatirəsinə yaradılmış bulaq kompleksinin açılışı olub



Alakol kəndində şəhid Hüseynov Cavid Hümbət oğlunun xatirəsinə inşa edilən bulaq kompleksinin açılışı olub.

Açılış mərasimində Tovuz rayon İcra Hakimiyyəti başçısının birinci müavini Rəşad Zeynalov, RİH başçısı aparatının məsul işçiləri, şəhidin ailə üzvləri, döyüş yoldaşları, şəhid ailələri, qazilər və kənd sakinləri iştirak ediblər.



Əvvəlcə şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Mərasimdə çıxış edən RİH başçısının birinci müavini Rəşad Zeynalov Azərbaycan tarixinin şərəfli səhifələrindən və Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Şanlı Ordumuzun Vətən müharibəsində əldə etdiyi qələbənin tarixi əhəmiyyətindən bəhs etmiş, ölkəmizin gələcəyi olan gənclərimizin vətənpərvər ruhda böyüməsinin zəruriliyini vurğulamışdır.

Digər çıxışlarda tarixə düşən İkinci Qarabağ müharibəsində Azərbaycan Ordusunun qəhrəmanlığından, 30 ildən artıq bir müddətdə işğal altında qalan torpaqlarımızın azad edilməsi ilə nəticələnən şanlı Qələbədən, Cavid Hüseynovun gənclərə nümunə olan qısa və şərəfli ömür yolundan danışılıb, eyni zamanda şəhid ailələri, qazilər və müharibə iştirakçılarına göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıq ifadə olunub.



Xatirə bulağının açılışında məktəblilərin ifasında Vətənə, ordumuza, şəhidlərimizə həsr olunan şeirlər səsləndirilib.

Sonda kənd qəbristanlığında Cavid Hüseynovun məzarı ziyarət olunub, ruhuna dualar oxunub.

Allah Şəhidlərimizə rəhmət eləsin!

*"Tovuz"*

# Milli Qəhrəman İlqar Mirzəyev haqqında çəkilmiş "Artilleriyanın atası" sənədli filmin tıqdimatı keçirilib




2020-ci ilin iyulun 12-dən başlayaraq Ermənistan silahlı qüvvələri Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz rayonu istiqamətində atəşkəsi kobud şəkildə pozaraq Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrini atəşə tutub. Döyüşlərin üçüncü günündə düşmənin təxribat xarakterli hücumunun qarşısını alarkən Azərbaycan Ordusunun polkovnik İlqar Mirzəyev şəhid olub.



27 sentyabr 2022-ci il tarixində Tovuz rayon Abulbəyli kənd Folklor Mədəniyyət evində Tovuz rayon İcra Hakimiyyəti və Ağstafa Regional Mədəniyyət İdarəsinin dəstəyi ilə Azərbaycan Respublikası Milli Qəhrəman İlqar Mirzəyev haqqında çəkilmiş "Artilleriyanın atası" sənədli filminin təqdimatı olub.

Tədbirdə Tovuz rayon İcra Hakimiyyətinin başçının müavini - İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Təranə Bayramova, Ağstafa Regional Mədəniyyət İdarəsinin rəisi Nurəddin Mehdiyev, şəhid ailələrinin üzvləri, Vətən müharibəsi iştirakçıları, rayonun ictimaiyyət nümayəndələri iştirak ediblər.

İlk olaraq ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Filmdən öncə Tovuz rayon Xalq teatrının 27 Sentyabr - Anım Günü ilə bağlı təqdim etdiyi "Bu həsrətə son qoyaq" adlı ədəbi-bədii kompozisiya tamaşaçılara dərin, təsirli anlar yaşadıb.

Tədbirin davamında filmin ssenari müəllifi və rejissoru Kəmalə Musazadə çıxış edərək bildirib ki, Mədəniyyət Nazirliyinin sifarişi ilə "Salnaməfilm" studiyasında 2010-cu ildən başlayaraq "Azərbaycanın Milli Qəhrəmanları" silsiləsindən sənədli filmlər çəkilir. İndiyədək bu silsilədən 100-dən artıq film lentə alınıb.

K.Musazadə bildirdi ki, İlqar Mirzəyevin keçdiyi döyüş yolu bir rejissor kimi onu çox heyrətləndirib: "Onu da qeyd edim ki, İlqar Mirzəyev Aprel döyüşlərində göstərdiyi şücaətdən sonra döyüşçü dostları ona "Artilleriyanın atası" ləqəbini veriblər. Buna görə də şəhidimizin bu ləqəbi filmin adı olaraq seçildi. Mənim üçün şəhid qəhrəmanlarımızdan əziz, dəyərli bir mövzu yoxdur. Çünki onlar ərazi bütövlüyümüz uğrunda öz həyatlarını fəda elədilər. Bizim də missiyamız onların qəhrəmanlıqlarını gələcək nəsillərə ötürməkdir".

Çıxışdan sonra "Artilleriyanın atası" sənədli filmi nümayiş etdirilib.

*"Tovuz"*



# Qonaqlı kəndində şəhid Hüseynov Mustafa Ələddin oğlunun xatirəsinə inşa edilmiş bulaq kompleksinin açılışı olub

Rayonumuzun Qonaqlı kəndində şəhid Hüseynov Mustafa Ələddin oğlunun xatirəsinə inşa edilən bulaq kompleksinin açılışı ilə əlaqədar tədbir keçirilib.

Tədbirdə Tovuz rayon İcra Hakimiyyəti başçısı aparatının məsul işçiləri, şəhidin yaxınları, şəhid ailələri, qazilər, ictimaiyyət nümayəndələri və kənd sakinləri iştirak ediblər.



Bulaq kompleksinin açılış mərasimində şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib və Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Mərasimdə çıxış edən RİH başçısının aparatının Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri Oruc Məmmədov Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Şanlı Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində qazandığı qələbənin tarixi əhəmiyyətindən danışıb, Böyük Zəfər sayəsində torpaqlarımızın işğaldan azad olunduğunu və ərazi bütövlüyümüzün təmin edildiyini vurğulayıb.

Sonra şəhidin atası Ələddin Hüseynov və şəhid ailələrinin üzvləri çıxış edərək tarixə qızıl hərflərlə düşən Zəfərimizə gedən yoldan söz açaraq, qazanılan qələbədə xalq-ordu birliyinin xüsusi əhəmiyyət kəsb etdiyini və şəhidimiz ilə bağlı xatirələrini bölüşüblər. Onlar möhtərəm Prezidentimiz cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya şəhid ailələri, qazilər və müharibə iştirakçılarını daim diqqət mərkəzində saxladıqlarına və qayğı göstərdiklərinə görə minnətdarlıqlarını ifadə ediblər.

Xatirə bulaq kompleksinin açılışında məktəb şağirdlərinin ifasında Vətənə, ordumuza, şəhidlərimizə həsr olunan şeirlər səsləndirilib.

Mustafa Ələddin oğlu Hüseynov 1996-cı il oktyabrın 1-də Tovuz rayonunun Qonaqlı kəndində anadan olub. Mustafa Hüseynov 2014-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli, daha sonra isə müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olaraq xidmət edib. Azərbaycan Ordusunun kiçik çavuşu olan Mustafa Hüseynov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsinin iştirakçısı olub. Hüseynov Mustafa sentyabrın 27-də Murovdağ döyüşləri zamanı şəhid olub və 15 dekabr 2020-ci il tarixində Tovuz rayonunun Qonaqlı kəndində dəfn olunub. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamları ilə kiçik çavuş Hüseynov Mustafa Ələddin oğlu "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

Allah şəhidlərimizə rəhmət etsin!

*"Tovuz"*

# Şəhid Həsənov Sərxan Habil oğlunun qardaşı dünyaya gəlib



Şanlı Zəfərimizlə başa çatan 44 günlük Vətən müharibəsi zamanı Füzuli uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olan rayonun Əlibəyli kənd sakini Həsənov Sərxan Habil oğlunun qardaşı dünyaya gəlib.

Tovuz rayon İcra Hakimiyyəti başçısının müavini-İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Təranə Bayramova və Tovuz RİH başçısı aparatının Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri Oruc Məmmədov şəhidimiz ailəsini ziyarət etmiş, körpənin doğumu münasibətilə ailə üzvlərinə göz aydınlığı vermiş, ananın və körpəsinin sağlamlıq vəziyyətləri ilə maraqlanmışlar.

Şəhidimizin anası Həsənova Samirə Məhəmmədəli qızı özünün və körpənin tibbi vəziyyətlərinin yaxşı olduğunu bildirmiş, onlara göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə təşəkkür etmişdir.

Qeyd edək ki, yeni doğulan körpəyə şəhidimiz Həsənov Sərxanın adı verilib.

*"Tovuz"*

# "Erkən nikah və qohumlar arasında nikahın fəsadları" mövzusunda tədbir keçirilmişdir





Tovuz rayonunun Yusif Sadıqov adına Bozalqanlı kənd tam orta məktəbində Tovuz rayon İcra Hakimiyyəti başçısı yanında "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiya"nın "Erkən nikah və qohumlar arasında nikahın fəsadları" mövzusunda tədbir keçirilib.

Tədbirdə Tovuz rayon İcra Hakimiyyəti başçısının müavini - İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Təranə Bayramova, Qazax-Tovuz Regional Təhsil idarəsinin Tovuz sektorunun müdiri Elmira Mürşüdlü, Tovuz RİH başçısı aparatının məsul işçiləri, Tovuz rayon Polis şöbəsinin əməkdaşları, məktəb psixoloqları, valideynlər və şagirdlər iştirak etmişlər.

Tədbir Vətən uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra açıq elan olunmuşdur.

RİH başçısının müavini, "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiya"nın sədri Təranə Bayramova çıxış edərək ölkə rəhbərliyi tərəfindən yetkinlik yaşına çatmayanların hüquqlarının müdafiəsinə xüsusi diqqət ayrıldığını bildirmiş, erkən yaşda nikah və qohumlar arasında nikahın törətdiyi fəsadları diqqətə çatdırmış və məsələ ilə bağlı cəmiyyət olaraq mübarizə aparılmalı olduğunu qeyd etmişdir.

Rayon Təhsil Sektorunun müdiri Elmira Mürşüdlü, RİH başçısı aparatının Hüquq şöbəsinin müdiri Svetlana Verdiyeva, Tovuz rayon Polis şöbəsinin əməkdaşı, polis mayoru İlham Məmmədov, həkim-hematoloq Gülər Quluzadə, Y. Sadıqov adına Bozalqanlı kənd tam orta məktəbin psixoloqu Günel Məmmədova çıxış edərək erkən nikah, qohumlararası nikahın hüququ çərçivəsi, həmin məsələlər ilə bağlı mübarizə üsulları, tibbi fəsadları, təhsil müəssisələrində aparılan maarifləndirici tədbirlər ilə əlaqədar iştirakçıları məlumatlandırmışlar.

Sonda erkən nikah və qohumlararasında nikah ilə bağlı hazırlanmış videoçarx nümayiş etdirilib.

*"Tovuz"*

# "Erkən nikah və fasadları"





İ.Mürşüdov adına Aşağı Quşçu kənd tam orta məktəbində "Erkən nikah və fəsadları" mövzusunda növbəti maarifləndirici tədbir keçirilib.

Tədbirdə Tovuz rayon İcra Hakimiyyəti başçısının müavini - İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Təranə Bayramova, Qazax-Tovuz Regional Təhsil idarəsinin Tovuz sektorunun müdiri Elmira Mürşüdlü, rayon Gənclər və İdman idarəsinin rəisi Sahib Ələsgərov, Tovuz rayon Polis şöbəsinin əməkdaşları, məktəb psixoloqları, valideynlər və şagirdlər iştirak etmişlər.

Tədbir Vətən uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra açıq elan olunmuşdur.

RİH başçısının müavini, "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiya"nın sədri Təranə Bayramova çıxış edərək erkən yaşda uşaqlar ailə qurmağa fiziooloji, psixoloji cəhətdən hazır olmadıqlarını və bu cür erkən nikahların sonradan onların həyatında bir sıra böyük fəsadlar yaratdığını qeyd etmişdir. Təranə Bayramova vurğulamışdır ki, həmin fəsadlar məişət zorakılığından tutmuş, doğuş zamanı ana-uşaq ölümləri və fiziki-psixoloji çətinliklərlə kimi bir çox problemlərə yol açır.

Daha sonra çıxış edənlər - rayon GİI-nin rəisi Sahib Ələsgərov, Rayon Təhsil Sektorunun müdiri Elmira Mürşüdlü, Tovuz rayon Polis şöbəsinin əməkdaşı, polis mayoru İlham Məmmədov erkən nikahların qarşısının alınması ilə bağlı həyata keçirilən profilaktik tədbirlərin daha təsirli olması və nəticə verməsi üçün bu tərz maarifləndirmə işlərinin aparılmasının vacib olduğunu bildirmiş, erkən nikahların qanuna zidd olduğunu qeyd etmiş və yol açdığı fəsadlar barədə tədbir iştirakçılarına ətraflı məlumat vermişlər.

Sonda erkən nikah nikah və onun fəsadları ilə bağlı hazırlanmış videoçarx nümayiş etdirilib.

*"Tovuz"*

# Maarifləndirici tədbir



Tovuz rayonu Y. Sadıqov adına Bozalqanlı kənd tam orta məktəbində Tovuz rayon İcra Hakimiyyəti, Təhsil Tələbə Krediti Fondu və Qazax-Tovuz Regional Təhsil İdarəsinin Tovuz Təhsil sektorunun birgə təşkilatçılığı ilə maarifləndirici tədbir keçirilib.



Tədbirdə Tovuz RİH başçısının müavini - İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Təranə Bayramova, Tovuz Təhsil sektorunun müdiri Elmira Mürşüdlü, Təhsil Tələbə Krediti Fondu İdarə Heyətinin sədr müavini Bəhruz Əzimov, orta ümumtəhsil məktəblərinin direktorları, direktor müavinləri, müəllimlər və buraxılış sinif şagirdlərinin valideynləri iştirak ediblər.

Fondun sədr müavini Bəhruz Əzimov tədbir iştirakçılarına Fondun tələbələr və tələbə olmaq arzusunda olan vətəndaşlarımız üçün yaratdığı imkanlar, təhsil tələbə kreditlərinin verilməsi qaydaları barədə ətraflı məlumat verib, iştirakçıların suallarını cavablandırılıb və təklifləri dinlənilib.

*"Tovuz"*

# Güləş yarışı keçirilib



Olimpiya İdman Kompleksində Vətən müharibəsində qəhrəmancasına şəhid olmuş, Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamları ilə "Azərbaycan Bayrağı" ordeni, "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" və "İgidliyə görə" medalları ilə təltif olumuş Şəkərov Xəyal İman oğlunun xatirəsinə həsr olunmuş sərbəst güləş üzrə açıq rayon birinciliyi keçirilmişdir.

Yarışda Tovuz, Gəncə, Şəmkir, Qazax, Ağstafa, Zaqatala, Yevlax, Mingəçevir şəhər və rayonlarından 170-dən çox idmançı iştirak edib.

Qalib idmançıların diplom və medallarla təltifetmə mərasimində şəhidin atası Şəkərov İman və qardaşı Şəkərov Tural iştirak etmişlər.

*"Tovuz"*

BAŞ REDAKTOR
Çingiz Qəribli

**Ünvanımız:**
Tovuz şəhəri, Şəhriyar küçəsi, 3,
Telefon: (022)315-35-23
tovuz.1929@mail.ru

Redaksiyaya göndərilən əlyazmalar geri qaytarılmır. Dərc olunan məktublardakı faktlara və elanların məzmununa görə redaksiya məsuliyyət daşımır.

Qəzet redaksiyanın kompyüter mərkəzində yığılmış, səhifələnmiş və "Son dakika" mətbəəsində çap olunmuşdur.
Sifariş.546.
Tiraj: 1500.